**UOT 82; 82-1**

# ZƏNCAN ƏDƏBİ MÜHİTİNİN YETİRMƏSİ SATİRİK ŞAİR ƏHMƏD SADİQİNİN POETİK DÜNYASI

**B.Ə.MOLLAYİ**
***Bakı Dövlət Universiteti***
***b.mollayi@gmail .com***

*Əhməd Sadiqi Zəncanda anadan olan-yaşayan müasir məşhur şairlərdən biridir. O, satira sahəsində çalışan və böyük nailiyyətlərə çatan bir şairdir. Bu duyğulu, ayındırıcı və ziyalı şair, Zəncanın ədəbi səmasında parlaq bir ulduzdur. Bu məqalə yığcam şəkildə Sadiqinin ədəbi yaradıcılığını izah edir.*

**Açar sözlər:** Əhməd Sadiqi, Zəncan şairləri, Azərbaycan şairləri, dini satira

Müasir dövrdə Azərbaycanca satira şeiri, bir sıra məşhur şairlərin mənəvi mirası kimi tanınmışdır: Mirzə Ələkbər Sabir, Mirzəli Möcüz Şəbüstərli, və Marağalı Hüseyn Kərimi. Biz bu böyük insanların əsərləri ilə siyasi, ictimai, mədəni problemlərin aydın güzgüsü və düzgün tarixi kimi yanaşmalıyıq. Satirik şeir bir millətin yaşayış məktəbində hörmətlə yaşamaq dərsi və ulus-dövlətin, ruhi xəstəliklərinin məlhəmidir. Buna görə də, satiranın əsas qayəsi xalqın mədəni geriliyini aradan qaldırmaqdır. Bu məsuliyyəti daşımada tənqid ona məqsəd yox, yalnız bir vəsilədir. İran İslam inqilabından sonra bir sıra acı hadisələr və çatışmazlıqlar xalqı və öncül insanları sarsıtmışdir. Bu öncüllərdən biri Zəncan şəhərində yaşayan satirik şair Əhməd Sadiqidən ibarətdir. Əhməd Sadiqi 1959-cu ildə Zəncan əyalətinin Çaypara qəsəbəsində Qızıl özən sahilində yerləşən Müşampa kəndində doğulmuş və beş yaşında öz kəndində molla məktəbinə daxil olmuşdur. Bu məktəbdə din və ərəb ədəbiyyatı ilə bağlı kitabları bir dərslik kimi oxumuş və bu ilkin təhsil və tərbiyənin təsirini bir xarakter kimi ədəbi həyatında daşımış, bu mühitin təsiri ciddi və satirik şeirlərində də açıq-aydın özünü göstərmişdir (1, 3). Biz bu müddəanın izlərini şairin lirik əsərlərində görə bilirik. Məsələn:

Saqiya badə gətir, qəm yenə ləşgər gətirib Yığıb ənsar o süphün daha yeksər gətirib Genə səəd oğlu kimin dövrəliyib dam-daşımı /Bir qərib üstünə bir kufə dilavər gətirib. **Xeymeye cəhlə şərər salmağa gəl“Nafizə”bax! Sönmüş atəşkədədən gör necə atəş gətirib** (2, 109).

Qeyd edək ki, məhəbbət mövzusunda olan bir şeirdə dini terminlərdən istifadə etmək Nafiz təxəllüsü olan Sadıqinin yeniliklərindəndir. Bu özəllik onun bütün şeirlərində dini anlayışın qələbəsini göstərir. Nafiz Şah rejiminin ziddinə olan İslam inqilabından on il öncə yeni məktəbə getmiş, ölkədaxili hadisələrdən təsirlənmiş inqilab anlayışını mənimsəmişdir (1, 3). Yoxsulluq Sadiqini təhsildən ayıraraq onu Tehranın və Kərəcin əmək bazarına çəkir, şair on ilə yaxin tikinti işində usta şagirdi olur. Bu müddətdə o, paytaxtın ədəbi cərgələri və siyasi axınlarına yaxınlaşır. Kitab oxumaq və öyrənmək onun əsas qayəsinə çevrilir. Böyük yazıçıların əsərləri ilə maraqlanır, dini, ictimai və ədəbi sahələrdə tədqiqat aparır. Bununla da öz dünyagörüşünü genişləndirir. İnqilabçı Sadiqi on ildən sonra Zəncana qayıdır, şəhərin ədəbi "işıq" qrupuna qoşulur, bu cəmiyyətdə böyük yazıçı, qəzetçi və şairlərlə tanış olur, öz düşüncəsini dərinləşdirir, yazıb-yaratdıqları həvəskarlar tərəfindən alqışlanır. Əsərləri ədəbi və siyasi jurnallarda, xüsusən "Ümid Zəncan" həftəliyində yayılır. Bütün oxucularını effiktiv şəkildə təsir altına alır və az bir zamanda Sadiqinin adı dillərdə, əsərləri əllərdə gəzir.

İnqilabçıların şüarları ilə reallıq münaqişəsi şairin incə ruhunu həyəcanlandırır. On yaşından zarafat həvəsi ilə şeir deyirdisə də, gəncliyində ictimaiyyətin böyük və ciddi tənqidçisinə çevrilir. İstəklərinə yad olan hadisələr onu şəhərdən çöllərə çəkir. Bağçılığa başlayır. Şair, həyəcanlı duyğularını və eşidilməz sözlərini ağaclar və güllər ətəyinə calayır. Ağrı və kədərlərini onlara zümzümə edir. Bu zamandan ciddi şəkildə tənqid sahəsinə qədəm qoyur (1, 11). Dərin baxışla bütün problemləri araşdırır, bu istiqamətdə misilsiz şeirlər yazır. Kəskin qələmi ilə qaranlıq pərdəsini yarmağa çalışır. Cəhalət, zülm, ədalətsizlik qaydasızlıq, dini xurafatlar və sıxıntılar, bir sözlə, bütün çirkinliklərlə amansız mübarizə aparır. Və bu məqamda söyləyir:

Əmələn şaire azadə mənəm   Od vuran xeymeye bidadə mənəm
Sadiqəm, Sadiqiyəm sadə mənəm  Bir müəmma kimi müşkül dəyiləm (1, 28).

Şairin "Qorxuram yağmıya yağış" adlı kitabı 2011-ci ildə çap olunur. Lakin təəssüflər olsun ki, onun əsas satirik şeir məcmuəsi olan "Taydəyişik" adlı kitabı indiyədək nəşr icazəsi ala bilməmişdir. Bu məqalə imkan daxilində Sadiqinin dini satirasını araşdırarkən, hörmətli oxucunu bu şairin tənqid dünyası ilə tanış etməyə çalışır. Kimsə Sadiqinin tənz şeirlərini eşidib oxuyarsa, dilimizin gözəlliyi və elimizin yaşam özəlliyini, xalqımızın çətinlikləri və həyat tərzinin naqisliklərini gözünün önündə canlandıra bilər (1, 13). Müqəddimədə qeyd etdiyimiz kimi, şair beş yaşında molla məktəbində təhsil almağa başlayır. Onun şəxsiyyətinin təməl daşı dini anlayışla qoyulur. Yeniyetməlik və gənclik çağında "ağıçılıq" edir. İnqilabın acı hadisələri onu bir satirik şairə çevirir. Əlbəttə, şairin fikri dəyişiklərində xarici stimul bir amil olsa da, biz Doktor Əli Şəriəti kimi dinçi intellektualların təsirini onun həyatında bir fond kimi görməliyik. Bu iddianın dəlili, Sadiqinin əsərlərində görünən "dini tənqidçilərin və ziyalıların" izləridir. Elə bu amil şairin şeirlərində dini

terminlərin çoxluğuna mühüm bir səbəb sayıla bilər. Məsələn: Molla, Ayətullah, Cənnət, Cəhənnəm, Rövzə, Sirat körpüsü, Ayə, Surə, Quran, Bismillah və s. Baxın:

Dutub zülfün genə bu küfrilən imanı taydeyşik;
Verir hey qətlimə fətva, yazır fərmanı taydeyşik.
Üzün surə, gözün ayə, qaşın bir əyri bismillah,
Bağışla dutmuşam sənlən, əgər quranı taydeyşik (2, 139).

Hər bir yaradıcının ətraf dünyasına baxışı müsbət olarsa onun əsərləri, "Mədh", tərif və alqışla dalğalanacaqdır; lakin onun baxışı mənfi olarsa, bütün yaratdıqları tənqidi olacaqdır. Elə buna görə də, şair bu şeirdə bizə bir dünyanı təsvir edir ki, orada heç nə öz yerində deyil, bəlkə də inverted mövqeyindədir. Bu "taydeyişik" aləmdə Küfr ilə -İman, Məşuqə ilə-quran, Cinn ilə-İnsan, Hur ilə-qılman mövqeləri dəyişilibdir. Bu gicəlləndirici vəziyyətdə insanlar onun "Divanın"isə bazardan "taydeyişik"alırlar:

Açıqdır aynadan şeirim, Cəmaət aynimir neynim,
Alır hər gün bazardan indidə, divanı taydeyşik (2, 139).

Oxucu şairin yalnız bu poemasının adına diqqət çəkərsə, şairin göstərdiyi dünyanı, orada qaydaların pozulmasını, alçaqların yuxarıya qaldırılmasını, dahilərin sıxılmasını son səviyyədə təsəvvür edərək bu şeirdə olan mübaliğənin nəhayət dərəcəsini görə bilər. Şair cəmiyyətin ayıq vicdanıdır. Və bu səbəbə görə, xalqın güzgüdə görə bilmədiyi hadisələri o xam kərpicdə görə bilir. Elə buna görə də, bir sıra xurafata dönmüş dini ənənələri və onların bir demaqoq qrupun qidalanma mənbəsinə çevrilməsini görərək deyir:

Öldü məşə Mülkəli, bir elin ağsəqqəli,
Sürdülər qəbristana, qəbrə qoyub Seyfəli;
İstədi təlqin verə, meyyit üçün Şeyx Əli,
Bir ucadan fatəhə, □onar dedi Mirzəli:
Kimdi bunun məhrəmi? Hamı dedi Mərdəli.
Mərdəli! Gəl qəbrə gir. Silkələ bu yəl-yəli.
Bir neçə mətləb görək, bu ölü, örgənməli (2, 77)

Şair dirilikdə dini vəzifəsini anlamıyan adama öləndən □onar ərəbcə dini vəzifələrinin öyrətməsinə istehza edərək sözünün davamında bu növ işləri bir faydasız və gülməli iş kimi dəyərləndirir:

Başladı ondan sora: əvvəl imamın Əli
Mülkəli can latəxəf, Gəlsə əli hərbəli.
Bir neçə söz zır ərəb, Saydı ona Şeyx Əli.
Mənki birin qanmadım, Qandı necə Mülkəli?
Şeyxəlinin işləri, Gülməlidir, gülməli (2, 77)

Ə.Sadiqi bu şeirdə öz xalqının arasında olan faydasız adət-ənənəni açıq şəkildə tənqid edərək deyir: Biz dirilikdə öz dini vəzifələrimizi öyrənib əməl etməliyik. İnsanlara, özəlliklə öz ailəmizə qayğı göstərməliyik. Marağalı Kərimi deyərkən:

Sağlığımda məni yad et əxəvi   Mən öləndən sora cırma yəxəvi (3, 353).

Sadiqi də başqa bir şeirində dirini gözdən salanlara və ölüyə pərəstişkar olanlara xitab edərək deyir:

Ölüyə aşiq olanlar!   Dirini gözdən atanlar!
Göz yaşılan yaşıyanlar!   Cədd-u abadı xürafat daşıyanlar! (2, 32)

Bəzi müsəlmanlar dirini gözdən salarkən, ölüyə bir aşiq kimi münasibət göstərirlər. Ölüyə dəfn, şami-qəriban, üç, ilk cümə, yeddi, qırx və il mərasimində yığışıb ağlayırılar. Bəzən məzar üstündə bina tikib, dəfn çağı ölüyə ərəbcə dini məsələ öyrədirlər. Hər ölünü başdaşında cənnət məkan adlandırırlar. Bu işlərin çoxu faydasızdır. Buna görə də, şair bu beytlərdə sadəcə soruşur: Dirilikdə ərəbi bilməyən və vəzifəsini anlamayan insana öləndən sonra ərəbcə təlqin vermənin nə faydası?

İsməu – ifhəm oxusan min dənə,   Getmiyəcəkdir ölünün beyninə (2, 84).

İmam Əli buyurur: Dörd şey bir mədəniyyətin məhvinə səbəb ola bilər: 1. Əsas işləri unutmaq. 2. Kiçik işlərlə çalışmaq. 3. Böyük insanları unutmaq. 4. Kiçik insanları alqışlamaq (8, 450). Avam insanlar, ayağına, ayaqqabı və əyninə geyim tapmadan, bəzən dini vəzifələrini yerinə yetirmədən, özünün ən vacib işlərini görmədən, ailəsinin rahatlığını təmin etmədən, evi olmadan, uşağına məktəb ləvazimatı almadan, borclu, icarəçi, işsiz olaraq, ağıçılara nəzir verirlər. Borc edib ziyarətə gedirlər. Şair bu fikri geriliyi görərək "kəsikbaş" adlı bir şeirində bu duruma belə etiraz edir:

Ay kəsik baş kimi hər mahe Mühərrəmdə-Səfərdə, Söylüyən mərsiyə xanlar! Məzhəb adıla əvamın başına şirə yaxanlar. Büdəti dinə qatanlar! Haqqı, nahaqqa satanlar! Səfəvidə bizə miras qalanlar, Bəsdi day kohnə yalanlar (2, 31).

Şair şeirlərinin birində Allah ilə bir xəyali diyaloq yaradaraq Tanrıdan düzgünlüyə yönəlmə və günahlarını bağışlama istəyir. Allah ilə insan arasında özünü bir vasitə kimi təqdim edənlərə dolayı şəkildə işarə edərək Allahı cavabın belə qeyd edir:

Oturdum bir gecə mən çörtgə saldım,   Günahım çox, savabım oldu zərrə. Dedim: "Yarəb! Qovulmuş bəndənəm mən;   Özün bu müşgülü lütf eylə cürrə". Nida gəldi: "Mənim çün Pap vəkildi;   Qayıt get, Gəlmə birdə bu məfərrə" (2, 47).

Sadiqi bir ziyalı və dahi yaradıcı kimi Cənnət-Cəhənnəmi insanın əməlinin mükafatı və hər kəsin axirətini bu dünyasının davamı sayır. Vurğulayır ki, Cənnəti faydasız işlərlə yox yalnız xeyrxahlıqla qazanmaq olar:

Hərracə qoyublar bizim İranda behişti,   Kafidi fəqət heyətə get, Kipriyin islat.

"Möcüz" kimi hər şəhridə bir möcüzə istir,   Surun çala bəlkə dirilə birdə bu əmvat!

Şeirin davamında çöx həsrətlə deyir: Ölkənin problemləri, Birdir? İkidir? Şair Hansı dərdi desin? Cavanın evlənməyə pulu yox, gənclər işsizlikdən narkotikə sığınıllar, yoxsulluq, pulsuzluq, və s. millətin nəfəsin kəsir. Lakin bu durumda bir sıra varlılar hər il neçə yol ziyarət yolunda milyonlar xərc edirlər.

Bu vəzilə hər il Hacı! Get Məkkəyə, pul tök,
Get Kərbəlaya ver ərəbə pulları qat-qat.
Üç dəfə gedibsən haca, həcc boynuva qoysun,
Bəsdir, kişi day getmə, otur mərdumu allat! (2, 51)

Sadiqi şeiri bir əyləncə vəsiləsi yox, bəlkə bu Allah verən poeziya gücünü, xalq üçün xeyirxah olmağa, qaralıqla və qaranlıqla döyüşmək vəsiləsi bilir. Elə bu inamına görə, "ağıçılar" tərəfindən dinin dünya dükanına yönəltməsinə və pul alıb xalqı ağlatmalarına etiraz edərək yazır:

İllət nədir, agah eləyin siz məni indi, Vaiz deyir hər gündə müsibət gərək olsun? (2, 60).

Sadiqi şairlərə bir oyandırıcı dək xalqı qiflət yoxusundan oyandırmanı bir borc bilərək bu vəzifəni belə vurğulayır:

Şair qələmi fərq eliyir ayrı qələmdən. Bu qeşridə ehsase risalət gərək olsun; (2, 60).

Oyandırıcı şair başqa bir beytlərdə dini dünya vəsiləsinə çevirənləri xitab edərkən deyir: Siz xuda deyirsiniz, lakin məqsədiniz xurmadır.

Əgər məddahsan ya ruzaxansan, Daxı vaz gəl əvami binəvadən.
Şəfaxanə açıbsan Təkyələrdə, Məgər asar yox səndə həyadən?
İmam adilə aldatma bu xalqı; Götür xurmanı get, əl çək xodadən (2, 67).

Sadiqi İslam ölkələrinin geriləməyin, istibdad, xürafat və bütün ruhi-ictimai xəstəliklərin səbəbini cəhalətdə görərək bu ziyanedici Fonda daima hücum edir. Çünki islam dünyasının indiki və tarixi bədbəxt olaylarının kökünu cəhalətdə görür və deyir:

Dolanıb əsri peyəmbər, eləki neççə dəhə, Oldu dövrani cəhalət genə ehya məşədi. Belə təhlil olunub hadiseyi kərbubəla, Cəhl hakim ola hər yerdə olar elm, fəna. Gələr iş üstünə təbizilə təzvir-u riya, Xar olar camiədə, daniş-u məna məşədi (2, 94).

Bir qrup yalançı zahidlər, xalqı bu dünyanın Allah verən bütün halal nemətlərindən əl çəkməyə dəvət edərək icarəçilərə, cənnətdə bir sələvat ilə iki min qızıl saray vədəsi verillər. Və bu söz Quran ayəsi ilə uyğun deyil. Çünki Quran axirəti bu dünyanın davamı və insanın öz əməlinin nəticəsi kimi səciyyələndirib və salihlərə hər iki dünyadan faydalanmanı təklif edərək deyir: "Ey bizi yaradan! Bizə bu dünyada və axirətdə yaxşı nemət ver" (4, 27). Və Sadiqi bu ayənin əsasinda yazır:

Bu dünyada gətir bir alunək ver! O, qəsri neynəyir yoxsul behiştə (2, 96).

Və bu məqama Mücüz Şəbistəri belə toxunur:

Ey verən bir sələvatə ikimin qəsri təla! Evin abad ola ey sahibi ehsan Allah. O imarətləri Sat tök füqəranın cibinə! Ver o puldan mənə də bir iki tuman allah (5, 115).

Şair xanı, xaqanı və xəlifəni dinin təhrifçiləri hesab edərk, təhrif prosesində onların məqsədini, qüdrətə və sərvətə yetişmək bilir. Təhrifçilər Tarix boyu dini sifarişləri öz istəkləri istiqamədə, o qədər azaldıb-çoxaldıblar ki, dinin ruhunu dəyişib, onu başqa bir dinə çeviriblər. Dahi Nizamiyə mənsub olan bir şeirdə, din adına müsəlmanların içində xürafatın yayılmasını tənqid edib və Məhəmməd peyğəmbərə xitab edərək deyir:

Dini tora dər peyi arayişənd, / Dər peyi arayeş-u pirayeşənd,

Bəs ki, bebəstənd bər u bəvg-u saz, / Gər to bebini nəşinasiş baz (6).

Şerin mənası: "Sənin dinin bəzəmək istəyirlər. Onda olan hokmləri çoxaltmaq və azaltmaq istəyirlər. O qədər dinə yamağlar yapışdırıblar ki, Sən indi o dini görsənsə tanıya bilməyəcəksən". Ə.Sadiği isə dahi Nizamidən ilham alaraq məharətlə bu anlayışı vurğulayıb və Səvəfi şahlarını, xalqın dini inamına, qüdrət vəsiləsi kimi baxdıqlarıni tənqid edir:

Şiənin armını yeksər Səfəvi cəl etdi; Təzə bir din gətirib soxdu müsəlman içinə. Dine İslamə vurublar bu qədər indi bəzək, Tanımaz xatəme mürsəl gələ ədyan içinə (2, 103).

Şair bu durumun kütlənin savadsızlığı ilə səbəbləndirib və bütün ziyalıları karandaş ucu ilə cəhl hicabını yırtmağa çağırır:

O, sadə dini xatəmi, nəcur əvam anlasın!

Vurubla xirqəduzlər, O, qədr pine-u bəzək ...

Midadı neştər eyləyin, hicabi cəhli yirtmağa! O cəhldir bu gun çəkib, həqiqət üstünə ələk (2, 105).

O, Kərbəlanın acı olaylarına, xalqı ağlatmaq üçün yalan qatmaqdan əsəbləşir və "Şəriəti", "Məişət" vəsiləsi edən "ağıçılara lağ məqamında belə söyləyir:

Düz danış vaiz əlan roze-yi rizvan neçiyə?
Satısan huriy-u qilmanı, doğurdan neçiyə?
Sənki iman alısan mömünə, cənnət satısan,
Küfrülə qar-qarışıq məndəki iman neçiyə? (2, 107)

Müdriklər hər bir millətin bütün qada-balasını üç amil ilə şərtləndirirlər: 1-Cəhalət, 2-Aclıq, 3- zülm. Aydındır ki, hər yerdə bu üç problemin hər biri görünərsə orada qada-bala vardır. Qəti demək olar ki, aclıq və zülmündə səbəbini "Cəhalət" hesab etmək olar. Bu məqamda "Xacə Əbdulla Ənsarı" deyir: "EyAllah! Kimsəyə ağıl vermisənsə nə verməmisən və ağıl verməmisənsə nə vermisən"? (7, 86). Şairdə bu dərdi düzgün düşünərkən, onu dərmanını yalnız cəhaləti aradan qaldırmaqda bilir:

Bir yol bizilən bağladı peymani cəhalət; / Virus kimi gotdu bu İranı cəhalət ... Ağlatdı o, "Möcüz" kimi şairləri yüz yol; / Diğlatdı o,"Sabir"ligə insanı cəhalət (2, 123).

Bütün yatanları ayındırmaq rahatdır. Lakın cəhalət yuxusu daha dərin olur. Bəzən cahil yatağında yatanları heç peyğəmbər də oyada bilməyibdir. Kütlənin cəhalət yuxusu zalımlara və qan soranlara ən böyük nemətdir. Qəddar hakimlər kütləlləri ayındıranları, ziyalıları, özlərinə qənim bilərək onları vaxtsız banlayan xorüz kimi, öz qüdrətlərinə qurban edirlər. Bu səbəbə görə gəzmələr daima haq deyən – haq söyləyənlərin dalısıyca dolanarlar, bəlkə onları tapıb dustaq etsinlər.

"Gəzmədən" başqa əlan, şəhridə yox kimsə oyaq;
Neçə göz, indi o, Təbrizilə Tehranlı yatıb.
Səndə çək xirpivi şair bala, tərpənməgilən;
Deyərəm sorsala, çoxdandı bu Zənganlı yatıb (2, 127).

Bu durumda hər mübarız şair, feronlar qarşısında, "Musa peyğəmbərin" rolunu oynamalıdır.

Musa kimi hər əsridə bir haqq diyən istir;
Ferounların boynunu bir-bir əyən istir (1, 154).

Təssüflə, bəzən dünya sevən, yalançı, sərvət və sarayla maraqlanan alımlər, dini özlərinə bir dünya dukanına çevirməklə, zalımlarla əlbir olmaqla, öz dini vəzifələrini unutmaqla, zalımlar sırasında dayanıblar. Onlar avamın başın aldadıb, özlərini insan ilə Allah arasında bir vasitə kimi təqdim edib, yalniz öz sərvət və qüdrətlərini fikirləşirlər. Şair bu durumun qarşısında susmanı caiz bilmədən Allah Təalanı xitab edərək deyir:

Ayələrin yazılıbdır çox sada/ Sadə sözün niyazı yox savada;
Keşiş, xaxam nə deyirlər arada/ Törat, Encil, Quran əgər sənindir
(1, 132).

Şair gələcəyə ümidlidir; şaxtaların getməsinə, qaranlığın qurtarmasına, zülmət pərdəsinin yarılmasına və həqiqət günəşinin yayılmasına da:

Bu şaxtalar, bu soyuqlar inan gedər bir gün;
Təbiətin açılar onda Bağı Tubası.
Zəmanə ayinəsi göstərir işin əksin,
Qəribə görməli tablovdu, zeşt-u zibası (1, 101).

Şairin xəyal şəhəri, barış, azadlıq, ədalət və mədəniyyətlə dalğalanır. Orda heç bir quş qəfəsdə, heç bir insan dustaqda deyil. İstehsalçılar talan olmurlar. Bütün haq sevən yazıçılar haq sözlərin qorxusuz yazıb-yayırlar.

Bir vilayət istirəm sülh-u səfailən dolu
Dar qəfəsdə quş kimi, heç kimsə dustaq olmasın ...
Haq sevən haq söyləyən azadələr yazsın sözün
Başının üstündə bir sərnizə şallaq olmasın (1, 43)

Sadiqi şeiri oyadıcılıq vəsiləsi və bu Allah verən qabiliyyəti, xeyirxah olmağa, qaranlıqla və cəhalətlə döyüşməyə həsr edibdir. Öz inamına görə, dinin "ağıçılar" tərəfindən dünya dükanına yönəltməsinə və pul alıb xalqı ağlatmalarına etiraz edir. Ə.Sadiqi kimi dərin duyğulu, aydın baxışlı insanlar öz düşüncələrini insanlarla paylaşarlarsa, İslam ölkərinin ən əsas dərdi olan cəhalət və onun nəticəsi olan gerilik aradan qaldırılar. Və şairin arzu etdiyi kimi, hər yerdə barış, azadlıq və ədalət yayılar.

### ƏDƏBİYYAT


1. Sadiqi Əhməd. Qorxuram yağmıya yağış. Zəncan: Nəşr Nikan, 2011,153 s.
2. Sadiqi Əhməd. Taydeyşik (çap olunmamış şeirləri). Şairin şəxsi axivində, 155 s.
3. Marağalı Kərimi Hüseyn. Rəngarəng XIV c. Tehran: Qolpunə, 2005, 950 s.
4. Quran. Tehran: Nəşri İrşad, 1383, 452 s.
5. Şəbüstərli Mirzə Əli Möcüz. Şeir divanı. I c., Tehran: Atrupat, 1360, 250 s.
6. www/Rahe sabz.net
7. Ənsari Xace Əbdullah. Monacat namə, Tehran: «Nəşri İslami», 1996, 137 s.
8. Amedi Həsən. Şərhi qorər u dorər, VI c. Tehran: «Nəşri İslami», 1993 ,754 s.


## ПОЭТИЧЕСКИЙ МИР ВЫХОДЦА ЗЕНДЖАНСКОЙ ЛИТЕРАТУРНОЙ СРЕДЫ САТИРИЧЕСКОГО ПОЭТА АХМЕД САДИГИ

**Б.А.МОЛЛАЙИ**

### РЕЗЮМЕ

Ахмед Садиги является одним из известных поэтов Азербайджана, жил и творил в Зенджане. Он известен в азербайджанской литературе как сатирический поэт. Его творчество повлияло на поэтов Зенджанской литературной среды. В этой статье кратко анализировано творчество Ахмед Садиги.

**Ключевые слова:** Ахмед Садиги, поэт Зенджана, азербайджанский поэт, сатирические стихи

## THE SATIRICAL POET, THE ALUMNUS OF ZANJAN LITERARY WORLD AHMAD SADEGHI's POETIC WORLD

**B.A.MOLLAYI**

### SUMMARY

Ahmad Sadeghi is one of the prominent contemporary poets who was born and lived in Zanjan. He is known to the Azerbaijani literature as a satirical poet. His creativity had remarkable impacts on the poets of Zanjan literary world. The article briefly analyzes Ahmad Sadeghi's creative activity.

**Key words:** Ahmad Sadeghi, poets of Zanjan, poets of Azerbaijan, religious satire